

# Rənglərin ecazkar aləmi



**Böyük məktəb keçərək öz dəst-xəttini formalaşdıran, əsərləri hər kəsə ilham verəcək yaradıcılıq hekayəsi olan rəssamlarımızdan biri Nazim Şamxorovdur. Onun incəsənətə olan böyük sevgisi parlaq istedadı ilə birləşərək müəllifin bu sahədə tanınmasına və sevilməsinə səbəb olub.**

Nazim Əziz oğlu Şamxorov 1982-ci ildə Bakıda dünyaya göz açıb. Uşaq yaşlarından incəsənətə maraq göstərib. Bu da təsadüfi deyil. Onun babası Cümə Şamxorov istedadlı rəssamlardan biri olub. O zamanlar müharibə dövrü olduğu üçün Əzim Əzimzadə adına İncəsənət Məktəbinə daxil olub, bir müddət Tahir Salahov, Mikayıl Abdullayev kimi rəssamlarla birlikdə oxusa da, cəbhəyə yollandığına görə təhsilini yarımçıq qoymuşdu. Balaca Nazim məhz babasının sayəsində rənglərlə danışmağı, fırça ilə davranmağı öyrənib.

Rəssamlığa həvəsi günügündən artan gənc Nazim orta məktəbi bitirdikdən sonra sırf bu sahədə addımlamağa qərar verir. Ən yaxın dostlarından olan rəssam Gülağa Rzayev ona bu sənətin gözəlliklərindən söhbət açaraq incəsənət məktəbinə hazırlaşmaq üçün həvəsləndirir, mənəvi dəstək olur. Beləliklə o, 1997-ci ildə Əzim Əzimzadə adına İncəsənət Məktəbinə daxil olur. 2001-ci ildə oradakı təhsilini tamamlayaraq Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbul edilir. Akademiyada Xalq rəssamları Böyükağa Mirzəzadə, Oqtay Şıxəliyev, Əməkdar rəssam Fərman Qulamovdan ustad dərsləri alır və sənətinin bütün sirlərinə məharətlə yiyələnir.

Nazim Şamxorov diplom müdafiəsi üçün kətan üzərində yağlı boya ilə ərsəyə gətirdiyi mürəkkəb kompozisiyalı “Orkestr” rəsm əsərini hazırlayır. Böyük zəhmət və sevginin bəhrəsi olan əsər peşəkar müəllimlər tərəfindən çox bəyənilir. Akademiyadakı uğurlu diplom müdafiəsindən sonra o, sırf yaradıcılıqla məşğul olmağa başlayır. O zamanlar lazımi şəraiti olmasa da, kirayəyə götürdüyü emalatxanalarda yorulmadan çalışır, möhtəşəm tablolar yaratmağa cəhd edir. Əlbəttə, zəhməti hədər getmir və bir sıra diqqətəlayiq əsərlər yaradır.

Onun əsərlərinin əksəriyyəti dəzgah rəngkarlığına aid olsa da, peşəkarlıqla ərsəyə gətirdiyi qrafika janrlı tabloları da mövcuddur. Əsərlərində simvolizmi təbliğ etməyi sevməyən rəssamın əsas məqsədi öz gördüyü, ilhamlandığı gözəllikləri təsvir edərək gözoxşayan mənzərələr yaratmaqdır. Daim yaradıcılıq axtarışında olan istedadlı rəssamın rəngarəng tablolarına diqqətlə nəzər yetirsək görərik ki, sadə bir çiçək təsvirində belə onun keçirdiyi hiss və duyğular açıq-aşkar özünü bəlli edir.

Nazim Şamxorovun yaradıcılığında mənzərələr, natürmortlar, portretlər üstünlük təşkil edir. Onun bir neçə dəfə müraciət etdiyi silsilə rəsmləri də var və təkrarçılıqdan uzaqdır. Bu əsərlərə misal olaraq “Güllər”, “Korrida”, “Venesiya”, “ İstanbul” və s.-ni göstərmək olar.

Rəssamın mənzərə janrlı əsərləri baxan hər kəsin yurd sevgisini daha da coşdurur. “Bakı mənzərəsi”, “Bakı bağları”, “İçərişəhər”, “Gədəbəy etüdləri”, “Lahıc bağları”, “Əsgəran qalası”, “Qusarın Laza kəndi”, “Qəbələ”, “Şamaxı”, “Şuşa şəhərinin görünüşü”, “Krım mənzərəsi” və s. kimi bir çox tabloları məhz bu missiyaya xidmət edir. Onun təbiət təsvirlərinin uğurlu alınmasının bir səbəbi də tez-tez Azərbaycanın müxtəlif bölgələrinə səfərlər edərək gözəllikləri ilk növbədə öz gözünə-könlünə köçürməsidir. Əvvəlcə mənzərələrin çoxsaylı, çoxrakurslu etüdlərini çəkir, yaradıcılıq süzgəcindən keçirir, yalnız bundan sonra gərəkli olanlarını, necə deyərlər, ətə-qana, rəngə-ruha doldurur. “Külafirəngi”, “Kürdəxanı mənzərəsi”, “Şirvan kanalı”, “Balıq tutarkən”, “Neft daşları” və s. adlı əsərlərinə baxmaqdan doymaq olmur.

Portret janrında da uğur qazanan müəllifin bu səpkili əsərləri hər biri ayrılıqda xarakterik cizgiləri, fərqləndirici cəhətləri, ətrafında işıqlı aura yarada bilməsi ilə fərqlənir. Bu baxımdan rəssamın “Nazim Məmmədovun portreti”, “Pərvizin portreti”, “Kişi portreti” və s. kimi əsərlərini örnək hesab etmək olar.

Rəssam 2013-cü ildə bir neçə sənət dostu ilə birlikdə Moldovada keçirilən beynəlxalq art simpoziuma dəvət almış, dörd böyük mənzərə ərsəyə gətirmişdir. Çox bəyənilən əsərləri sərgilənmək üçün muzeyə qəbul olunmuşdur.

Sənət yolunda qazandığı uğurları davamlı olan Nazim Şamxorovun “Şirvanşahlar mənzərəsi” adlı tablosunu 2000-ci ildə ulu öndərimiz Heydər Əliyev Qazaxıstan Respublikasının o zamankı prezidenti Nursultan Nazarbayevə hədiyyə etmişdir. Bundan əlavə, mədəniyyət nazirliyinin təmsilçiləri Türkiyəyə səfərləri zamanı Ankarada keçirilən görüşdə qardaş ölkənin Xarici işlər naziri Mövlud Çavuşoğluna məhz Nazim Şamxorovun “Şuşa – Gövhər Ağa məscidi” adlı rəsm əsərini bağışlamışlar. Qeyd edək ki, həmin əsər Türkiyədə açılacaq “Qarabağ” muzeyinin ekspozisiyasını bəzəyəcək.

Nazim Şamxorovun “İşığın ecaskar əksi” adlı fərdi yaradıcılıq sərgisi ötən ilin may ayında Bakıdakı Xətai Sənət Mərkəzində beş gün davam edib. Sərgidə yer alan yağlı boya texnikası ilə kətan üzərində çəkilmiş 80 mənzərə sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Nazim Şamxorovun əsərləri dünyanın müxtəlif ölkələrində muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanır. Rəssamın “Bakı” mövzulu əsəri Dünya Bankının ofisini bəzəyir.

**Ziyarət CABAROVA,**
**Sənətşünas, Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi**

Xalq qəzeti.- 2023.- 27 yanvar.- S.10.